*Cavadova Təranə. Azərbaycanın mədəni-mənəvi tarixindən*
*// Elmi əsərlər,2020,2(11),iyul-dekabr,s.40-45.*

UOT 821.512.162+94(479.2

**Cavadova Təranə,**
*AMEA-nın Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu*
*Bakı ş., İstiqlaliyyət küç.,26*
e-mail: Teranecavadova62 @gmail.com

# AZƏRBAYCANIN MƏDƏNİ-MƏNƏVİ TARİXİNDƏN

**Açar sözlər:** *Şumer mədəniyyəti, Şumer ədəbiyyatı, dövr kitabələri, Dədə Qorqud, milli-mənəvi dəyərlər.*

**Giriş.** *Tariximizi və adət ənənələrimizi yüksək qiymətləndirən Ümummilli lider Heydər Əliyev demişdir: "Milli adət və ənənələr, hər bir xalqın milli mədəniyyətinin zənginliyindən, qədim tarixi kökə malik olmasından xəbər verir".*

*Azərbaycan xalqı dünyanın ən qədim ənənələrinə malik olan xalqlardandır. Xalqımızın qədim tarixə malik olduğunu üzərində izlər qalmış abidələr də sübut edir. Azərbaycan xalqı tarixi ənənələrinə bağlı bir xalq olaraq o təməllər üzərində böyük mədəniyyət hadisələri yaradıb. Əlbəttə ki, hər bir milləti tanıdan, mənəvi simasını göstərən və onu digər xalqlardan fərqləndirən, öz xalqının adət ənənələri və yüksək milli, əxlaqi mənəvi dələrinə malik olmasıdır. Təqribən 5 min illik tarixə malik olan ədəbiyyat tarixinin inkişafı zaman-zaman mədəniyyətimizin, elm və təhsilimizin, ədəbiyyatımızın tərəqqisinə səbəb olub. Ədəbiyyatımız daha çox dastanlarda, həmçinin şifahi xalq ədəbiyyatının müxtəlif janrlarında, aşıq yaradıcılığında, muğamatda öz ifadəsini tapmış,bu gün də Azərbaycan xalqı öz zəngin tarixi mədəni irsini qoruyub saxlayır.*

**Əsas mətn.** XIX əsrdə dünya tarixində böyük hadisələr, ədəbiyyat tarixinin tədqiqi və öyrənilməsi sahəsində yeni dövr başlanğıcı olmuşdur. Söz sənəti xalqın əzəli-mənəvi sərvətidir. Bu sərvət kök, özül üzərində inkişaf etmiş, kamil şəkil almışdır. Bizə məlum olan və olmayan tarixi həqiqətlər də az deyil, sayahesaba gəlməz. Lakin bizə məlum olmayanlar daha çoxdur. Buna görə XIX əsrədək, yəni "Şumerin kəşvi"nədək bəşər tarixində elə yanılmalar, həqiqətdən sapmalar, "ağı qara", "qaranı ağ" yozmalar olub ki, bugünədək təkzib edilməyib, həqiqət öz yerini tapmamışdır.

Türk ədəbiyyatı, habelə Azərbaycan ədəbiyyatı bir qaynaqlar, kök, özül üzərində təşəkkül tapıb, inkişaf edibdir. Biz bunları "ilkin"qaynaqlar, şərti olaraq "ilk inkişaf dövrü" və ya dövrləri adlandırırıq. Çünki, hələlik məlum olanı budur. Hələ çox qədim zamanlardan ulu babalar sözün böyük mənəvi qüdrətinə, əxlaqi və tərbiyəvi gücünə inanıblar; söz, söz sənəti insanı, xalqı yaşadan əvəzsiz sərvətdir, onun mənəvi dayağıdır. Sevimli xoş günlərdə də, ağır, qayğılı günlərdə də söz onların dadına çatıb, yaxın "dostu" , "sirdaşı" və təskinliyi olubdur. Onlar sözlə öz sevinclərini, xoş günlərini, ağır qayğılı günlərini də bədii şəkildə ifadə etmiş, şeir ölçü-biçimində, mif, rəvayət, əfsanə, nağıl, hekayə, ağı, bayatı, sayaçı sözləri, layla, atalar sözü, zərbi-məsəl, təmsil, mübahisə-münazirə və başqa şəkillərdə verə biliblər. Beləliklə, insan öz işini, fıkirlərini, arzu və istəklərini, ümidlərini, inanclarını ifadə etmək imkanı əldə edib, öz mənəvi dünyasını yaradıb. Bədii düşüncə, bədii təfəkkür insanı kamilliyə doğru çəkib, ona qanad verib, onu yaşadıb. Bəşər tarixində bu, böyük bir dönüş, inkişaf mərhələsi sayıla bilər. Kainatın və insanın, ümumən canlı aləmin yaranmasına, insanlığın tarixinə münasibət, elmi baxış tamamilə dəyişilmiş; din, dil, ədəbiyyat, elm, fəlsələ, adət-ənənə və s. barədə deyilən "qeydsiz-şərtsiz" fikir və müddəalar əsaslı surətdlə dəyişilmiş,

elmin bütün sahələri üzrə mövcud məlum fıkirlər, rəylər ya tamam alt-üst olmuş, ya da dəyişilib obyektiv, ağlabatan ədalətlı bir istiqamət almışdı; yəni hökmdarlar vardısa, şəhərlər vardısa, xalq da vardı, el birliyi dövlət də vardı, mədəniyyət və tarix də vardı. Bəs, bu xalq hansı xalq idi? Bu şəhərləri kimlər salıb? Bu hökmdarlar hansı xalqın hökmdarları idi?! Onlar hansı dildə danışırlarmış?! Bu suallara XIX əsr "Şumer tapıntıları" son qoyub, XX əsr az-çox buna cavab verib.

Yaxın dövrlərədək biz elə hesab edirdik ki, yəhudi mədəniyyəti bütövlükdə Yunanıstana borcludur. Aparılan ən yeni tədqiqatlar göstərdi ki, bir çox məsələdə biz o mədəniyyətin varisləriyik ki, beş min il bundan əvvəl onu Şumer xalqının dühası yaratmışdır" (28, s. 25). " Beş min il bundan əvvəlki həmin zəngin mədəniyyət, sivilizasiya da birdən-birə yaranmayıb, onun da dərin kökləri olub, daha qədim zamanlardan axıb gələn qaynaqları olub; hökmdarlar olub, mühüm şəhərlər olub" (41, s.l7). "Beş min il" və daha artıq minilliklər bundan qabaq bizə məlum olan, aşkarlanan zəngin Şumer mədəniyyəti də o vaxta qədərki min-min illərin özülü üzərində davam edib, daha qədim dövrlərdən başlanan inkişaf həmin mədəniyyəti və zənginliyi yaradıb. Və odur ki, bəşər tarixinin, insanlığın başlanğıcını müəyyən etmək çətindir və ya heç mümkün də deyil. Məs.: Akademik A.P.Okladinkovun ekspedisiyası Altayda aşkar etdiyi insan əli ilə yonulmuş daşların, radioaktiv metodla iki yüz min il əvvələ aidiyyatını müəyyən edibsə, və ya Altayın dağ ətəklərində və Cənubi Sibirin başqa yerlərində mağaralardan tapılan muncuqların və dəvəquşu yumurtasının qabığından hazırlanmış digər qadın bəzəklərinin yaşının 40-45 min il olduğu dəqiqləşdirilibsə (Bax: 8, s. 95), dünyanın, möcüzələr yaradan insanlığın yaşamını necə dəqiq müəyyən etmək olar?! Burada həm də diqqət edilməli, düşünməli bir cəhət var ki, bu tapıntılar və bu barədə söylənən fikirlərlə, yenə 40-50 min il bundan qabaq yarandığı təhmin edilən Şumer mifləri və mifik təsəvvürlər, bir-biri ilə üst-üstə düşür! Bu ki, möcüzədir! Yox! Faktlardan qaçmaq olmaz (40, s. 24,25). Deməli, hələlik dünyamızm ilk xalqı sayılan şumerlər 40-50 min il bundan əvvəl dünyanın yaranması, insan oğlunun doğuluşu kimi bəşəri problemlər barədə düşünmək səviyyəsinə gəlib çatıbmışlar.

Kainatın yaranması, yerin göydən ayrılması, insan, onun doğuluşu, keçdiyi inkişaf yolu, ağıl, dərrakəsi, ilkin dünyagörüşü və s. barədə, az-çox ağlabatan söz, fikir söyləyərək XIX əsrdə dünya ədəbiyyatının əsası, qaynağı olan ədəbiyyat yaranmışdı. Şumer mədəniyyəti və ədəbiyyatından söhbət açarkən, söz yox, qarşıya ilk olaraq şumerlərin kimliyi və hansı müasir xalqların əcdadları olduğunu bilmək problemi çıxır. Bu barədə az-çox yazılıb, hər kəs "özünə tərəf çəkməyə" cəhd göstərib, buna çalışıb. Lakin həqiqət, tapıntılarının təsdiqi o qədər güclüdür ki, bu cəhdlər öz-özünə yox olub gedir. Bəs Şumer mədəniyyətindən ümumtürk mədəniyyəti və onun qaynağı kimi danışmağa bizim elmi əsasımız və mənəvi haqqımız varmı? Nə dərəcədə biz, müasir türk xalqları həmin köklə, həmin mədəniyyətlə bağlıyıq! Şumerlərin kimliyi, onların dili, mədəniyyəti barədə dünya elmi fikri belədir: Şumerlər müasir türk xalqlarının əcdadlarıdır; şumerlər ən qədim türklərdir, şumer dili prototürk dilidir. Bu fikir, bu nəticə dünya şumeroloqlarının - S.N.Kramer, L.VulIi, S.Lloyd, Q.Çarl, Z.Kosidovski, Q.Vinqler, E.Reklü, M.Belitski, D.Reder, A.Cavat və b. gəldikləri fikir və nəticələrdir. Şumer-türk mühiti məhz bu həqiqətdir, söylənilən fikir və çıxarılan nəticələrin obyektivliyini təsdiq etmişdir. Tədqiqatlar zəngin kitablar, mətnlər əsasında göstərilir və təsdiq edilir ki, miladdan öncə, ən azı üç-dörd min il əvvəlki Şumerdə güclü mədəniyyət, elm, ədəbi ənənə olubdur. Ümumilikdə qədim Babilistan güclü ədəbiyyat, elm, təhsil və sənətin inkişafina görə, bəşər mədəniyyətinin beşiyi, "tarixin başlanğıcı" sayıhr. Tədqiqatçılar qəti müəyyən ediblər ki, Şumerin mərkəzi "Urukda, Babilistanın cənubunda Şumer mədə-

niyyəti özünün ən yüksək zirvəsinə çatmışdı. Bunu Urukun dönə-dönə xatırlanan dini, ədəbi mövzuları və bunlara əlavə olunan mifoloji mətnlər də göstərir. (32, s. 40). Miladdan öncəki VII-VI əsrlər türkdilli poeziya, onun bu səviyyəsi, söz yox, birdən-birə yarana bilməzdi. Bu köklər gedib zəngin Şumer mədəniyyətinə calanır. Belə isə Şumer-türk sözlərini eyni mənada götürmək olarmı, buna bizim mənəvi haqqımız, elmi əsasımız varmı? Bu barədə təsəvvür və buna inam yaratmaq üçün əvvəlcə şumerlərin kimliyi və dilinin hansı dil və hansı dilə yaxın olduğuna diqqət yetirək. Dünya elmi fikrinin görkəmli nümayəndələrinin gəldiyi nəticələrə əsasən , tarix şumerdən başlanan müasir türk xalqlarnın soy-kökündür; şumerlərin dili prototürk dilidir. Türk və Azərbaycan ədəbiyyatı bu qaynaqlar, kök, özül üzərində təşəkkül tapıb, inkişaf edibdir. Biz bunları "ilkin"qaynaqlar, şərti olaraq "ilk inkişaf dövrü" və ya dövrləri adlandırırıq. Görkəmli alimlərin bu barədə məlum fikirlərinə nəzər salaq.

**Amerika şumeroloqu S.N.Kramerin:** "Tarix Şumerdən başlanır". Bu adın özü çox söz deyir: bəşəriyyətin tarixinin başlanğıcı baxımından bu əsər çox qiymətlidir. İnsanlığın, insan cəmiyyətinin tarixi, onun çoxcəhətli fəaliyyəti və nailiyyətlərinin, ümumbəşər sivilizasiyasının - dininin, dilinin, yazısının, ədəbiyyatının, elminin tarixidir. Şumerlərin hansı xalq olduğu və hansı dildə danışdıqları barədə fikirlər diqqəti cəlb cdir.

**Alman alimi Q.Vinkler:** "Bizə qədər gəlib çatmış ən qədim qaynaqlar Semit dilində deyil, "Şumer dilində" yaranıb ki, daha sonralar bu yazıların dilini də onların dili adlandırıblar. Bu dil hələlik yeganə dildir ki, Babil mədəniyyətini yaradanlardan, ox şəkilli yazıları icad edənlərdən şumerlərdən bizə qədər gəlib çatmışdır.

**Polşa alimi Z.Kosidovski:** "Dəclə və Fərat hövzələri bəşər tarixində xalqların zəngin mədəniyyət mərkəzlərindən olub. Bu böyük mədəniyyətin əsas yaradıcıları şumerlərdir. Artıq m.ö. III minillikdə onlar gözəl şəhərlər salıblar, suvarma arxları şəbəkəsinin köməyilə torpağı becəriblər, onlarda sənət çiçəklənib, onlar böyük incəsənət əsərləri və ədəbiyyat yaradıblar. Şumerlərin davamçıları kimi akkadlar, assuriylilar, babillər, hettlər və arameylər sonralar Babilistanda və Suriyada öz dövlətlərini yaratmış və onların varisləri olaraq onlardan böyük və dəyərli mədəniyyət götürmüşlər" (100, s. 24). F.HommeI Babilistamn Tanrı adlarından danışarkən yazırdı: "Əgər desək ki, bütiinlüklə tanrıların adları Babil mifologiyasından götürülüb, onda bu adlar, demək olar, hamısı Şumer əlamətlidir. Bunun üçün, ilk növbədə, "bu cəhətə diqqət etmək gərəkdir ki, semitlər şumerlərin əsas mədəniyyətini və başlıca olaraq, yazısını və dilini tanımışlar. Axır vaxtlaradək xüsusi həvəslə Şumer adlarını, habelə onların özlərinin yenidən yaratdıqları və ya ivləri ilə gətirdikləri mifoloji fıqurları qəbul ctmişlər" . Və yenə: " İlk şumerlər (Göyü və Yeri ulu ruh sayırdılar, onlarla qonşuluqda yaşayan və babilləşən qərbi semitlər isə Günəşə sitayiş edirdilər" (82, s. 31).

Hələ çox qədim zamanlardan ulu babalar sözün böyük mənəvi qüdrətinə, əxlaqi və tərbiyəvi gücünə inanıb, söz, söz sənəti insanı, xalqı yaşadan əvəzsiz sərvətidir, onun mənəvi dayağıdır. Sevimli xoş günlərdə də, ağır qayğılı günlərdə də söz onların dadına çatıb, yaxın "dostu" , "sirdaşı" və təskinliyi olubdur. Onlar sözlə öz sevinclərini, xoş günlərini, ağır qayğılı günlərini də bədii şəkildə ifadə etmiş, şeir ölçü-biçimində, mif, rəvayət, əfsanə, nağıl, hekayə, ağı, bayatı, sayaçı sözləri, layla, atalar sözü, zərbi-məsəl, təmsil, mübahisə-münazirə və başqa şəkillərdə verə biliblər. Beləliklə, insan öz işini, arzu və istəklərini, ümidlərini, inanclarmı ifadə etmək imkanı əldə edib, öz mənəvi dünyasını yaradıb. Bədii düşüncə, bədii təfəkkür insanı kamilliyə doğru çəkib, ona qanad verib, onu yaşadıb. Bəşər tarixində bu dönüş, inkişaf mərhələsi sayıla bilər. Son min il bizə yaxın və tanış olduğu kimi, qədim dünyanın müdrik adamları, ziyalıları, el sənətsevərləri üçün də özlərinə qədərki min il, bəlkə də daha artıq tanış idi. Folklor nümunələrini onlar arayıb-axtarıb yığıb və yazıblar. Bunlar əsrlər boyu əlyazmalar şəklində olsa da qalıb, itmiş olanlar da sonralar yenidən üzə çıxıb tapılıb, çap

olunub. “Şumerin kəşfı” böyük bir mədəniyyəti üzə çıxartmış, dünya tarixini yenidən öyrənmək üçün zəngin materiala çevrilmişdir.

Qədim ümumtürk mədəniyyətləri və ədəbiyyatları tarixində Qorqud atanın, Kaşqarlı Mahmudun elmi-bədii fəaiiyyətləri, göstərdikləri xidmətlər də əvəzsizdir. Burada VI-VII əsrlərdə xalq, ellər-obalar arasından toplanıb “Dədə Qorqud kitabına salınan yüzlərcə atalar sözləri, zərb-məsəllər, frazeoloji birləşmələr və s. nəzərdə tutulur. Bunların heç birini Qorqud Ata özündən yaratmamış, xalqdan hazır şəkildə götürüb kitabında yazmış, yeri gəldikcə işlətmişdir. Bu bədii əsərlər isə “Dədə Qorqud kitabına qədərki ədəbiyyatımızın zəngin folklorudur.VI -VII əsrlər türk ədəbi dünyasının böyük şəxsiyyəti olan Dədə Qorqud, Qorqud Ata öz “ Kitabı”nı “Oğuznamə”ni düzüb qoşarkən, şifahi ədəbiyyatın qədim və zəngin qaynaqlarından xüsusi ilhamlıqla faydalanmışdır. Qorqud Ata xalqın mənəvi varlığını, ağlını, zəkasını, xəlqimilli təfəkkürünü, adət-ənənə, ədəb-ərkan, ailə-məhəbbət və s. kimi keyfiyyətiərini yığcam və bədii şəkildə ifadə edən incilərlə kitabı bəzəmiş, ona ziynət vermişdi. Bununla da o, “Kitab”ının ümumi bədii dəyərindən heç də az olmayan daha böyük və əlavə bir iş də görmüş, VI- VII əsrlərə qədərki xalq yaradıcılığı nümunələrini, xüsusilə onun frazeoloji ifadə və vahidlər kimi çox qiymətli qatlarını açmış, üzə çıxarmışdı. Bu da təsadüfi deyildi ki, Qorqud Ata elə “ Kitab"ın “ Başlanğıc”ındaca qədim dünyanın fıkri, ədəbi-bədii təfəkkür dairəsi, özünün həyata, insanlara, hadisələrə olan münasibəti və s. aid atalar sözləri və zərb-məsəllərlə oxucuları hazırlamış və sonra boyları düzüb-qoşmuş, yaratmışdır. “Dədə Qorqud” kitabında indi bizə köhnə görünən, çətin anlaşılan sözlər, ifadələr, atalar sözləri və zərbməsəllərin tarixi daha qədimlərə gedib çıxır. “Kitab”a düşmüş dilin bu yüzlərcə yatar qüvvələri, bunların hər biri öz-özlüyündə bədii əsərlər olmaqla, Dədə Qorquda qədərki ədəbiyyatımızın folklor qoludur. Burada XI əsrdə xalq, ellər-obalar arasından, sinələrdən toplanıb, “Divanü lüğat-it-türk” əsərində verilən rəvayətlər, yüzlərcə şeir inciləri - şərqilər, mərasim nəğmələri, ağılar, varsağılar, ikimisralıqlar, habelə atalar sözləri, zərb-məsəllər və s. toplanaraq verilmişdi.

“Orxon-Yenisey” kitabələri və “Dədə Qorqud”dan da əvvəlki, minmin illər ərzində düzülüb-qoşulmuş xalq ədəbiyyatı nümunələridir. Bunların bir qisminin tarixi və ondan da qabaqkı minillikdə yaranmış olduğunu müəyyən etmək mümkündür. Mahmud Kaşğarlı demişdir, “Onları ilk söyləyənlər” - bu ilksöylənmə haçandır, hansı dövrə aiddir, əlbəttə, bunu demək çətindir. Lakin bir sıra şeirlərin tarixini, onların həsr edildiyi hadisələrin tarixi ilə ölçüb-biçmək, müəyyənləşdirmək olur, bu hadisələr həmin şeirlərin nə vaxt, hansı münasibətlə yarandığı, hansı dövrün məhsulu olduğunu aydınlaşdıra bilər. Mahmud Kaşğarlının “Divan”ına düşən qədim şeirlərdən bir qismi İran-Turan müharibələrində həlak olmuş ALP Ər Tonqanın ölümünə deyilmiş elegiyalar, yəni matəm nəğmələri, ağılarıdır. Bu “ürək yanğıları" ağılar nə qədər, sənətkarlıq baxımından kamil əsərlər olmuşdur desək doğru olar. Onların 11-i, təxminən min səkkiz yüz il sinələrdə yaşayıb, bizim eranın XXI əsrlərinə gəlib çıxmışdır. Beləliklə az-çox ədəbiyyat tariximizin və onun doğuluşu, yaranması, inkişaf yoluna düşməsi barədə dürüst fikir söyləmək olur.

Türkoloq İ.V. Stebleva Mahmud Kaşğarlı “Divan”ını, şeir mətnlərini seçib sıralamış və ayrıca çap etdirmişdir. Bu şeir mətnlərinin agı, nəğmə, şərqi, varsağa, ikimisralıq və s. müəllif haçan, hansı şəraitdə və hansı dövrlərdə yarana biləcəyi barədə bir sıra fikir və düşüncələri, mülahizələri xülasə etmiş öz sözünü demişdir. Bütün Şumer ədəbiyyatında - dastan-poemalarda, hekayələrdə, dialoq-münazirələrdə, təmsillərdə, hətta atalar sözləri, zərb-məsəl və s. də tanrıların, ilahi qüvvələrin hadisələrin gedişinə müdaxiləsi qabarıq şəkildə özünü göstərir: tanrılar, ilahələr qəhrəmana kömək edir, məsləhət verir, hər bir müşkül işi

asanlaşdırır, yoluna qoyur, bir sözlə, haqqın-ədalətin keşiyində dayanır. Dədə Qorqud mənsub olduğu xalqın yaşadığı bir dövrün “Oğuz zamanı"nın bədii salnaməsini yaradıb, min-min illik tarixin şanlı bir səhifəsini sinələrə, yaddaşlara köçürüb; sonralar qələmə də alınıb, yazıya keçib, əbədiləşib. Bəs hanı o tarix, o tarixi yaradanlar? Hanı o, dünyadan köçüb gedən, “əcəll alıb yer gizləyən” igidlər, ərənlər? Onlar cismən həyatda yoxdur. Iakin xalqın qan yaddaşında, qəlblərdə, ürəklərdə özlərinə əbədi yer ediblər; torpağa, xalqa bağlılığı ilə, vətənə sədaqətilə; ailəyə məhəbbətilə... Çox təbii və ruhani hissdir ki, bu gün biz onlarla fəxr edir, hətta onlara həsəd aparır, onlara bənzəməyə çalışır, onlar kimi olmağa can atırıq. Bu mənada “ Dədə Qorqud” dastanları tarix, “tarixi-həqiqətlərin hədütəsdiqi olmaqla, həm də müasirdir, bizim bu günümüz və sabahımızdır; o qədər də uzaq olmayan keçmişimizi, onun bir anını aydm göstərən güzgümüzdür. Qorqud Atanın kitabı bütövlükdə tarixi hadisələrin bədii ifadəsidir. Bu “Kitab” 'VI-VII əsrlərdə yazılmış və yaradılmış tarix kitabıdır. Əzəldən həyat belə qurulub. İnsanın qismətinə bu düşüb. Dünyaya gələn gedəcəkdir. Bu kədərdir. Bəs, Dədə Qorqudun bu harayı nədir? Bu bədbinlik nə deməkdir? Bu ağrını, bu kədəri insan oğlu duymaya bilməz. Deyirlər “Gündə mini ölür, min biri dirilir". Bu nikbinlikdir, nikbinliyə meylli kəlamdır. Heç olmasa, bir artığı var. Olum və ölüm bəşəriyyətin əzəli gəlişi və gedişidir. Olum və ölüm olmasaydı bəşəriyyət qocalardı. Dünyaya “ Qoca dünya" deyilsə də, bəşəriyyət həmişə cavan olaraq qalır. Məhz, atalar “Ölənlə ölmək, dünyadan köçənlə köçmək olmaz" deyiblər. Dədə Qorqudun kədəri içindəki nikbinliyin mayası buradan gəlir. Bu dahi insanın düzüb-qoşduğu dastanlar, bağladığı “ Kitab” elə əslində bunu deyir; qalan və yeni doğulan nəsillərə bu fıkri izah edir; həyat gözəldir, mənalıdır və bu qısa ömrü yaşamağına dəyər. Dünya heç kəsin olmayıb, nə mənimkidir, nə də sənin. Dünyaya gəldin gedəcəksən. Buna görə, gərək bu qısa ömrü şərəflə, ləyaqətlə başa vurasan, insanlıq adına layiq ibrətli işlər görəsən.

**Nəticə.** Qədim və köklü milli-mənəvi dəyərlər sisteminə malik olan Azərbaycan xalqı bu dəyərləri sədaqətlə qorumuş, əsrlərlə yaşatmış və inkişaf etdirmişdir. Milli-mənəvi dəyərlərimizin qorunması və gələcək nəsillərə çatdırılması keçmişdə olduğu kimi bu gün də öz aktuallığını qoruyub saxlayır. Çünki milli-mənəvi dəyərlərimizin Azərbaycan xalqının formalaşmasına təsiri ilə yanaşı, milli dövlətçiliyimizin möhkəmləndirilməsində də xüsusi rolu vardır. Milli-mənəvi, o cümlədən dini dəyərlərimizin, adət-ənənələrimizin dərindən öyrənilməsi və araşdırılması müasir cəmiyyətimizin prioritet istiqamətlərindən biridir.

**Ədəbiyyat:**

1. Azərbaycan ədəbiyyatı tarixi.C.1. Bakı: Elm, 1960.
2. Azərbaycan ədəbiyyatı tarixi. Altı clddə.C.1,2. Bakı: Elm, 2004-2007.
3. Azərbaycan tarixi. C.1. Bakı: Elm, 1958.
4. Azərbaycan klassik ədəbiyyatı kitabxanası, 20 clddə.C.1. Bakı: Elm, 1982.
5. Azərbaycan Filologiya məsələləri. Bakı:Elm, 1983.
6. Kitabi-Dədə Qorqud. Bakı, 1988.

***Джавадова Тарана***

## ИЗ ИСТОРИИ ДУХОВНОЙ КУЛЬТУРЫ АЗЕРБАЙДЖАНА

**Резюме**

В статье говорится о создании Вселенной, разделении земли и неба, о человеке, его рождении, пути развития, разуме, интеллекте, его изначальном мировоззрении и т.д. Речь идет о великих событиях мировой истории XIX века, изучении и исследовании истории литературы, об основах литературы, о шумерской культуре и литературе. Шумеры - предки современных тюркских народов, шумеры являются древнейшими тюрками, шумерский язык - прототюркский язык. К подобному заключению пришли исследователи шумеров всего мира. В статье говорится также о сформировавшихся за долгие годы истории культуры Азербайджана, высоких культурных и нравственных ценностях, об устном народном творчестве, об обычаях и традициях тюркских народов.

**Ключевые слова:** *шумерская культура, шумерская литература, древние надписи, Деде Коркуд, национально-нравственные ценности.*

***Javadova Tarana***

## FROM THE HISTORY OF SPIRITUAL CULTURE OF AZERBAIJAN

**Summary**

The article talks about the creation of the universe, the separation of the earth from the sky, man, his birth, the way of his development, his mind, intelligence, first worldview and other things. Major events in world history in the XIX century, the basis of the study and study of the history of literature, Sumerian culture and literature are discussed. Sumerians are the ancestors of modern Turkic peoples, Sumerians are the oldest Turks and Sumerian language is Proto-Turkic. This idea, this conclusion is the opinion and conclusions of the Sumerian specialists of the world. The article also mentions the high cultural and moral values of Azerbaijan's cultural history, oral folk literature and traditions of the Turkic peoples.

**Key words:** Sumerian culture, Sumerian literature, period inscriptions, Dada Gorgud, national-moral values.

*Redaksiyaya daxil olma tarixi: 16.12.2020*
*Çapa qəbul olunma tarixi: 23.12.2020*

*AMEA A.A.Bakıxanov adına Tarix İnstitutunun*
*aparıcı elmi işçisi, t.ü.f.d. dosent,*
*Budaqova Sahibə İbrahim qızı tərəfindən çapa tövsiyə olunmuşdur.*